*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2024, №1* ISSN: 2664-5432
*Səhifə: 203-208*
*http://doi.org/10.59849/2664-5432.2024.1.203*

**Səidə ƏHMƏDOVA***

**TƏSNİFATLANDIRMANI GENİŞLƏNDİRƏN AMİL KİMİ RADİAL ŞƏBƏKƏ NƏZƏRİYYƏSİNİN ROLU**

**XÜLASƏ**

Bütün elmlərdə olduğu kimi dilçilik elmində də sistemləşmə və təsnifatlandırma prinsipi vacib məsələlərdən biridir. Təsnifatlandırma anlayışı uzun illər klassik təsnifatlandırma əsasında mövcud olmuşdur. Lakin dilçilik elminin təfəkkürlə bağlılığı və koqnitiv dilçiliklə bağlı yeni nəzəriyyələrin meydana gəlməsi labüd şərtlərdən biri oldu. Koqnitiv dilçilik dilin təfəkkürlə sıx əlaqəsini əsaslandırır. Təfəkkürdə yaranan konseptlər isə daha geniş məna əlaqəsi yaratdığına görə təsnifatlandırma modelində yeni nəzəriyyələrin yaranması vacib şərtlərdən biri oldu. Məqalədə prototiplər nəzəriyyəsi və onun əsasında yaranan radial şəbəkədən bəhs edilir. Göstərilən tədqiqat işində radial şəbəkənin konsept və mədəniyyətlə bağlılığı da əks etdirilir.

***Açar sözlər:*** *koqnitiv, təsnifatlandırma, prototip, radial, şəbəkə, konsept*

Təsnifatlandırma prinsipləri bütün elmlərdə mövcuddur. Xüsusilə, bu dövr texnologiya həyatımızın hər sahəsində mövcuddur. Texnologiyanın dilini sistemləşdirmək üçün isə dilin təsnifatlandırma prinsipi öz aktuallığını müxtəlif məqamlarda da əks etdirir. Lakin, texnologiya dilinin daha zəngin olması üçün artıq klassik təsnifatlandırma öz yerini konseptlərin təsnifatlandırılmasına verir. Təfəkkürdə nə qədər mövcud fikir və düşüncələr varsa, hər biri müəyyən kateqoriyaya daxildir. Lakin bu kateqoriyanı müəyyən etmək çox da asan deyil. Təfəkkürdə yaranan konseptlər mənanın daha dərin izahına da yer verməli olur. Uzun illər klassik təsnifatlandırmaya söykənən kateqoriyalar bu gün daha geniş məna konseptinə ehtiyac duyur. 1970-ci illərdən sonra, xüsusilə, koqnitiv dilçiliyə dair araşdırmalar geniş vüsət aldıqdan sonra, təsnifatlnadırma modellərinə daha dərin yanaşma başladı [Rosch: 2006]. E.Roşa görə, sözlər ya konkret, ya da mücərrəd təsnifatlandırma adı altında mütləq qruplaşır. Qruplaşma zamanı forma, əlamət, xüsusiyyət və s. kimi göstəricilər müəyyən rola malik olur [Rosch: 1978]. Daha sonra fərqli aspektlərə görə bu bölgü prinsipi daha da dərinləşir. Məlum olur ki, təsnifatlandırmada yalnız təfəkkürün rolu deyil, dil qaydaları da əhəmiyyət daşıyır. Lakin G.Lakoff qrammatik təsnifatlandırmaya diqqət çəkərək eyni zamanda bu prosesin bütöv bir prinsipə dayandığını əsaslandırırdı. Dillərin mədəniyyətə və ölkələrə görə fərqli olması onların təsnifatlandırma prinsipinə də təsir edir [Margaret: 2020, s.7]. Artıq sözlər deyil, təfəkkür dili ilə yaranan konseptlər meydana gəldi. Prototiplər nəzəriyyəsinin ailə şəcərəsi prinsipi klassik təsnifatlandırmayla müqayisədə daha geniş kateqoriyalar yaratdığı müəyyən edilmişdir. Hətta klassik təsnifatlandırmada verilən məhdudiyyətlər prototiplər nə-

* AMEA Nəsimi adına Dilçilik İnstitutu (dissertant). Email: seide-86@mail.ru

zəriyyəsi ilə daha da genişləndi. Bununla bağlı olaraq, J.R.Ross dildə hər bir fonoloji, morfoloji və sintaktik elementin prototip əlaqə ilə bağlandığını söyləyir [Lakoff: 1987, s.58-61]. Lakin bəzən prototiplər nəzəriyyəsinin izah edə bilmədiyi yeni konseptlər və konseptlərdən yaranan məna ortaya çıxdı. Prototipləri tamamlayan bu nəzəriyyə radial şəbəkə nəzəriyyəsidir.

Radial şəbəkə təfəkkür və dil arasinda sıx əlaqə olduğunu, dildə konsept xüsusiyyətin əhəmiyyətli rola malik olduğunu göstərən nəzəriyyələrdən biridir. Radial şəbəkə prototip nəzəriyyəsinin ayrılmaz hissəsi hesab edilə bilər. Bu nəzəriyyə sayəsində klassik təsnifatların hüdudları genişlənir. Prototip nəzəriyyəsinə əsasən özünə bənzər xüsusiyyətlər mərkəzi mənada cəmləşdirir. Radial şəbəkə isə təsnifatlandırılmış elementlərin bənzər xüsusiyyəti ilə yanaşı, daha fərqli və spesifik xüsusiyyəti ön plana çəkir. Məsələn, sərçə lələklərinə, qanadlarına və uçmaq xüsusiyyətinə görə quşlar sinfində prototip rol oynayır. Dəvəquşu və pinqvini isə bu xüsusiyyətlərlə yanaşı uça bilməyənlər kateqoriyasına görə daha xüsusiləşdirmiş oluruq. Yarasaların isə uça bilməsi vacib şərt olmadığı məlum olur. O, daha çox məməli heyvanlar xüsusiyyəti daşıyır. Radial şəbəkədə əsas məna ilə yanaşı, periferik mənaları əks etdirən, kontekstə görə fərqli xüsusiyyətləri olan elementləri daxil edirik. Radial şəbəkədə məhz iyerarxilik prinsipi əks olunur. Elementlər ən vacib xüsusyyət sırası ilə təsnifatlandırılır. Fərqli kateqoriyaların bir- birilə əlaqələndirilməsi radial şəbəkə nəzəriyyəsi sayəsində gerçəkləşir. Xüsusilə, bitki və heyvan növlərinin bioloji təsnifatlandırılmasında radial şəbəkə mühüm amil kəsb edir. Radial şəbəkənin metaforik modellərə əsaslanan qarışıq konseptlər yaratmaq xüsusiyyəti var. Metaforalar daha çox dillərin öz mədəniyyətləri və xalqın təfəkkür konseptlərinə görə müxtəlif modellər yaradır. Bəzən bu məna konseptlərini izah etmək zəruri olur [Lakoff: 1987, s.58-61]. Ümumiyyətlə, kateqoriyanın üzvləri arasında bəzən birbaşa, bəzən də metoforik əlaqə mövcud olur ki, bu da müəyyən bir sistemə malik olan radial şəbəkə sayəsində genişlənə bilir.

D.Gerraertin “*Cognitive linguistics*” əsərində Klaudia Bruqman və Corc Lakoff araşdırması əks olunur. Araşdırmaya əsasən təsnifatlandırma modelinin yaranmasında radial şəbəkənin rolu xüsusi qiymətləndirir. Qeyd etdiyimiz kimi klassik təsnifatlandırmanın əlamətlərini prototiplər nəzəriyyəsi sayəsində artıra bilərik, lakin bəzən bizə məna yaxınlığı kimi görünməyən, eyni zamanda bir mərkəzi mənaya tabe olan əlamətlər meydana çıxır. Radial şəbəkə sayəsində bu mənaları mərkəzi mənaya birləşdirmək mümkün olur. Bildiyimiz kimi omonimdən fərqli olaraq polisemiyada da məna yaxınlığı mövcuddur. Əslində polisemiyada təsnifatlandırmanı radial şəbəkə öz üzərinə götürür, təsnifatlandırmaya daxil olan digər üzvlər sxematik əlaqə ilə bağlanır. Şəbəkə nə qədər genişlənsə də, digər semantik xüsusiyyətlərdən fərqli olaraq polisemiyada miras prinsipi qorunur. İngilis dilində *over* sözünü nümunə götürsək topoloji olaraq bütün sözlərdə yüksəklik sözünü ifadə edəcəyini görərik, eyni zamanda məhz bu sözlə eyni prototipə məxsus olan müxtəlif radial şəbəkələr yarada bilərik. Sözləri yüksəklik

mənaları birləşdirsə də, fərqli yerlərdə və fərqli mənalarda işlədildiyini də müşahidə edirik. Məsələn, *1.The bridge is over the river (Körpü çayın üzərindədir). 2.The helicopter is flying over the city (Helikopter şəhərin üstündən uçur). 3.The roof of the house fell over (Evin damı uçdu).4. The teacher turned the page over (Müəllim səhifəni çevirdi.) 5.The game is over.(Oyun bitdi.)6. Don't overcook the meal( Yeməyi həddindən çox bişirmə)və s.* D.Gerraertin "Cognitive linguistics" əsərinə istinadən Brugman bildirir ki, fərqli mənalarda işlənən bütün bu sözlər "*yüksəklik, üzərində*" kimi ümumi mənaları özündə əks etdirir. Məsələn, birinci nümunədə trayektoriya yoxdur, burada yalnız məkan və vəziyyət var. İkinci nümunədə isə *A* məntəqəsindən *B* məntəqəsinə trayektoriya, müəyyən bir istiqamət, məkan və vəziyyət mövcuddur. Üçüncü, dördüncü, beşinci cümlələrdə də vəziyyət və istiqamət verilir. Hətta verilən sözönü ilə mücərrəd mənada bir neçə məna yaratmaq da mümkündür. Lakin bütün bu ifadələri "*over*" sözünün xüsusiyyətləri birləşdirir. Radial şəbəkədə nümunədən də göründüyü kimi məna əlaqəsi bəzən çox yaxın, bəzən də radial şəbəkə arasında əlaqəsiz görünən metoforik mənalar da ortaya çıxararaq genişlənə bilər. Məsələn, "*he has a strange power over me.*" (*Onun mənim üzərimdə qəribə bir təsiri var.)* cümləsi mücərrəd mənaya nümunə olaraq göstərilə bilər. Məlumdur ki, sözlər öz həqiqi mənası ilə yanaşı, müəyyən məcazi mənalı konseptlərin də yaranmasına xidmət edir. *Soyuq* sözünü həm temperatur kimi, həm də insan hissləri və xarakteri ilə bağlamaq olar. Soyuq hava və soyuq hisslər kimi verilən nümunədə birinci ifadə öz həqiqi mənasını daşıyarkən, ikinci ifadə olan soyuq hisslər konseptə görə məcazi mənada işlənə bilər. Deməli, təsnifatlandırmada polisemik konseptlər də mühüm funksiyaya malikdir. Radial şəbəkə polisemiya üçün əhəmiyyətli mövqedədir. Əslində bu siyahının uzanması polisemiyayla əlaqəli olaraq verilən mənadan asılıdır [Geeraerts:2006, s.109-140]. M.Lemmesin araşdırmasına əsasən, Kroft konsept izahını tələb edən mənaları mikro mənalar adlandırmışdır. O, bıçaq sözünü müxtəlif nümunələrlə şərh edərək fikrini əsaslandırmışdır. Bıçaq tibbdə, mətbəxtdə, süfrədə və s. fərqli formalarda və fərqli yerlerdə işləndiyinə görə buradan fərqli mikro mənalar çıxır. Artıq araşdırmadan müəyyən oldu ki, radial şəbəkə prototip əsaslı yanaşma ilə təsnifatlandırmanı daha dəqiqləşdirir və məna genişlənməsinə xidmət edir.Radial şəbəkənin polisemik məna genişlənməsində və leksikologiyada rolundan başqa, qrammatikada da mühüm yerdə dayandığını görmək olar. Radial şəbəkənin qrammatik aspektdən araşdırılması L.Talminin misilsiz xidmətlərindən olmuşdur. Radial şəbəkənin qrammatik cəhətdən mərkəzi və periferik mənalara bölünməsi şəbəkə sxemi ilə əsaslandırılır. İngilis dilində gerund, isim, məsdər anlayışlarını müxtəlif qrammatik kateqoriyalara daxil etsək də, onları birləşdirən ümumi mərkəzi mənanı müşahidə edə bilərik [Lemmes:2015,s.90-105].

Nümunədə üç fərqli cümlə verilmişdir. *Building is not easy process.. To build a building is not easy. (Bina tikmək asan iş deyil). Buildings are old (binalar qədimdir).* Birinci cümlədə tikmək məsdərlə eyni məna əks etdirsə də, gerund

kateqoriyasına daxildir. İkinci cümlədə məsdər eyni məna ifadə edir. Hər biri feilin təsriflənməyən formasına daxildir. Lakin kateqoriya başlığı olaraq fərqli adlara malikdir. *Builings are old (binalar qədimdir)* cümləsində isə feildən düzələn isim tamamilə başqa kateqoriyada yer alır və cəmlənə bilir və ismin xüsusiyyətini daşıyır. Hər üç söz fərqli kateqoriya altında birləşsələr də, öz mərkəzi mənalarından tikmək və ya tikili mənasından uzaqlaşa bilmir. Talmi yaradıcılığını araşdıran Mark Turner də sxematik şəbəkə anlayışını tədqiq etmişdir. O, müəyyən qrammatik elementlərin konseptlərə görə dəyişikdiyini, eyni zamanda mərkəzi mənasına bağlılığını əsaslandırmışdır [Turner: 2002].

Grammatik təsnifatlandırmada, digər dil hadisələrində olduğu kimi dillərin mədəniyyətlər və ölkələrə görə müxtəlif olduğu müəyyən olunmuşdur. R.Dixon qrammatik bölgünün də müəyyən prinsiplərə görə təsnifatlara bölündüyünü və bunun ölkələrə görə nisbi xarakter daşıdığını əsaslandırmışdır. Belə ki, nitq hissələrində isimi nümunə gətirərək müxtəlif bölgü prinsipi təqdim etmişdir. İsimlər konkret və mücərrəd olması ilə yanaşı, mücərrəd kateqoriyanı məkan, miqdar, zaman və s. kimi kateqoriyalara bölür. Vəziyyət bildirən isimləri həm təfəkkürdə məcazi mənaya və real həqiqi mənaya ayırılır. Bununla bərabər, hərəki fəaliyyət bildirən və nitqlə bağlı fikirlər ifadə edən isimlərin də mövcud olduğunu bildirən R.Dixon bu bölgünün bütün dillərdə olduğunu, lakin başqa kateqoriya altında birləşdiyini göstərir. R.Dixon iddiasına görə Avstraliya dilində bütün isimlər konkret isimlərdir, mücərrəd olanlar isə feil və ya sifət kimi fərqli nitq hissələri altında birləşir [Dixon: 2005, s.83]. Ümumiyyətlə, prototip təsnifatlandırma modeli müasir lüğətlərin tərtibi zamanı sözlərin məna qruplaşdırılmasında xüsusi rola malikdir [Lingzhen, Yanyan: 2020, s.288-305]. Uilyam Labova görə dilçiliyin araşdırdığı yalnız bir əsas sahə olsaydı, o da təsnifatlandırma sahəsi olardı. Sözlərin mənasının səslər vasitəsilə real vəziyyətlə necə əlsaqələnirilməsi onu maraqlandırırdı. Lakin, Labov fikrinə əsaslanaraq, yalnız real vəziyyəti deyil, konseptlər sayəsində yaranan qeyri-real və ya məcazi mənalı konseptləri də buaraya radial şəbəkə vasitəsilə daxil etmək mümkündür. Çünki dildə yalnız real vəziyyətlər deyil, təfəkkürə xas olan çoxlu sayda müxtəlif məcazi konseptlər də yarada bilərik [Zeifert: 2020]. Koqnitiv dilçilikdə ən geniş konsept yaratmaq xüsusiyyətinə malik olan nəzəriyyələrdən biri də mental məkanların bir növü olan blendinqlərdir. D.Jasmins bu mövzuda araşdırma apararaq, radial şəbəkə nəzəriyyəsi əsasında müxtəlif konseptlərin təsnifatının mümkün olduğunu göstərir. O, əsasən siyasi xadimlərin yayımladığı sosial şəbəkə mesajları ilə müxtəlif yeni diskurslar yarandığını nümunə gətirərək, bu ifadələrin radial şəbəkə şəcərəsi yaratdığını göstərir [Jasmins: 2023].

R.Natalia və M.Olga isə birgə araşdırmaları zamanı şəbəkəli təsnifatlandırma əlaqəsini müasir dövrün tələbinə uyğun olaraq xüsusi qiymətlənidirirlər. Onların birgə istinadına əsasən şəbəkə əlaqəsi dillərarası, mədəniyyətlərarası əlaqə zamanı və texnologiyanın tətbiqində mühüm rola malikdir. Şəbəkə əlaqəsi və ya konseptlərin şəbəkəli əlaqəsi dilin inkişafında vacibdir [Ryabchenko, Malysheva:

2020]. Ümumiyyətlə istər mədəniyyətlərarası əlaqə zamanı, istər mediada və digər sahələrdə müəyyən təsnifatlandırma və şəbəkə prinsipi mövcuddur. Bunların mövcud olmasında isə təfəkkür və ən əsası da təfəkkürdə mövcud olan konseptləri reallaşdıran dil xüsusi əhəmiyyət daşıyır. Tanya Araújo and Sven Banisch dil şəbəkəsilə bağlı tədqiqat zamanı, şəbəkə əlaqəsinin məcazi elementləri birləşdirməsindən bəhs edir. [Araujo, Banicsh: 2016, s.107-131]. Reallıqda bir təsnifatlandırma əsasında birləşməyən elementlər, şəbəkə əlaqəsi ilə müəyyən konsept daxilində birləşə bilir.

Deməli, klassik təsnifatlandırma artıq fərqli konsept və müxtəlif mədəniyyətlər sayəsində öz aktuallığını qoruya bilmir və təsnifatlandırmada prototip əsaslı radial şəbəkə və sxematik şəbəkəyə müraciət etməli olur. Nəticədə məlum olur ki, klassik təsnifatlandırmaya əsasən heyvanlar ümumi isimlər kateqoriyasında yer alır, heyvanların bioloji olaraq növləri isə prototiplər sayəsində geniş bölgüyə malik olur. Lakin təsnifatlandırma zamanı birləşə bilməyən xüsusiyyətlər isə konsept məna sayəsində radial şəbəkə nəzəriyyəsi ilə əlaqə yarada bilər. Radial şəbəkə sayəsində konseptə daxil olan elementin bütün xüsusiyyətləri təhlil edilərək əlaqələndirilir. Buradan belə nəticə çıxır ki, radial şəbəkə mənaların konseptlərə görə təsnifatlandırılmasıdır. Hətta radial şəbəkə həm mövcud vəziyyət, həm də praqmatik xüsusiyyətləri proqnozlaşdırararq konsept əlaqəsi yaradır.

**ƏDƏBİYYAT**


1. Dai Lingzhen, Huang Yanyan. Application and Effectiveness of Prototype Theory in The New Oxford English-Chinese Dictionary. *International Journal of Lexicography*, Volume 33, Issue 3, September 2020, Pages 288–305, https://doi.org/10.1093/ijl/ecaa002
2. Dixon R.M.W. A Semantic approach to English Grammar 2nd edition / R.M.W. Dixon- New York- Oxford University press, 2005. s. 83. 419 s.
3. Diogo H. Jasmins. PDF) Proposing a Radial Tree Network for the Diachronic Analysis of Blending, Conference: 16th International Cognitive Linguistics Conference, August 2023
4. Geeraerts D. Cognitive linguistics:basic readings/ D.Geeraerts-Berlin-New York: Mouten de Gruyter, 2006, s.109-140, 496 s.
5. Lakoff G. Women, Fire and Dangerous Things/ G. Lakoff-London- The University of Chicago Press, 1987, p.58-61, 632 p
6. Lemmes M. Cognitive semantics. In: Routledge Handbook of Semantics. Editor: Nick Riemer, London & New York: Routledge, 2015
7. Margaret E.W. Cognitive Linguistics for Linguistis/ E.W.Margaret, S.N.Geoffrey/: Switzerland-Springer Nature 2020;https://link.springer.com/book/10.1007/978-3-030-33604-
8. Mateusz Zeifert, Rethinking Hart: From Open Texture to Prototype Theory—Analytic Philosophy Meets Cognitive Linguistics, International Journal for the Semiotics of Law - Revue internationale de Sémiotique juridique 35(1), April 2022.

9. Natalia A.Rybchenko, Olga P.Malysheva. Innovative approaches in linguistics: Network analysis in linguistic data.10th Internayional conference "Word, Utterance, Text: Cognitive, Pragmatic and Cultural aspects", August 2020.
10. Rosch E. Psychology OnLine.Net [Internet resource]// 18.05.2006. (psychology-online.net)/ Rosch E. Rosch's "Principles of Categorization// E.Rosch, 1978. [internet recource]/
11. Tanya Araújo and Sven Banisch. Multidimensional Analysis of Linguistic Networks. 2016. https://www.iseg.ulisboa.pt/aquila/getFile.do?fileId=470666&method=getFile
12. Turner M. Review of Leonard Talmy, 2000, 'Toward a Cognitive Semantics', March,2002


## THE ROLE OF THE THEORY OF RADIAL NETWORKS AS A FACTOR IN EXTENDING THE CLASSIFICATION


### ABSTRACT

The principle of systematization and classification is one of the important issues in linguistics, as in all sciences. The concept of classification has been around for many years based on classical classification. But the connection of linguistic science with thinking and the emergence of new theories after cognitive linguistics came to the fore became one of the conditions. Cognitive linguistics justifies the close connection of language with thinking. On the other hand, the concepts that arise in thinking have a broader semantic connection, so the emergence of new theories in the classification model has become one of the important conditions. The article discusses the theory of prototypes and the radial network that arises on its basis. The radial grid shows the relationship of grammatical elements to the schematic network with which it is connected. This research paper also reflects the connection of the radial network with the concept and culture.


***Keywords:*** *cognitive, classification, protytpe, radial, network, concept.*

## РОЛЬ ТЕОРИИ РАДИАЛЬНЫХ СЕТЕЙ КАК ФАКТОРА, РАСШИРЯЮЩЕГО КЛАССИФИКАЦИЮ


### РЕЗЮМЕ

В лингвистике, как и во всех науках, принцип систематизации и классификации является одним из важных вопросов. Концепция классификации существует уже много лет на основе классической классификации. Но связь лингвистической науки с мышлением и появление новых теорий после того, как когнитивная лингвистика вышла на передний план, стало одним из условий. Когнитивная лингвистика оправдывает тесную связь языка с мышлением. С другой стороны, концепции, возникающие в мышлении, имеют более широкую смысловую связь, поэтому появление новых теорий в модели классификации стало одним из важных условий. В статье рассматривается теория прототипов и возникающая на ее основе радиальная сеть. Радиальная сетка показывает взаимосвязь грамматических элементов со схематической сеткой, с которой она связана. В указанной исследовательской работе также отражена связь радиальной сети с концепцией и культурой.


***Ключевые слова:*** *когнитивная, классификация, прототип, радиальная, сеть, концепция.*